**UOT:94**

# TÜRKİYƏ TARİXÇİLƏRİ ERMƏNİLƏRİN ŞİMALI AZƏRBAYCAN TORPAQLARINA KÜTLƏVİ KÖÇÜ BARƏDƏ (1828-1829-CU İLLƏR)

**Vidadi UMUDLU***

*Məqalə redaksiyaya daxil olmuşdur: 16may 2021; çapa qəbul edilmişdir: 9 iyun 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*

*Received: 16 th May, 2021; accepted: 9 th June, 2021; published online: 30 of September 2021.*

**Açar sözlər:** *Şimali Azərbaycan, çar Rusiyası, Türkmənçay müqaviləsi, Ədirnə müqaviləsi, erməni vilayəti, kütləvi köçlər*

## Giriş

Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra imzalanan Türkmənçay və Ədirnə müqavilələri erməni əhalisinin Şimali Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsində həlledici amil oldu. 1828-1830-cu illəri əhatə edən bu köçürmələr Türkiyə tarixşünaslığında da geniş şəkildə araşdırılmış mövzulardandır.

Əksər türkiyəli müəlliflər ermənilərin kütləvi şəkildə köçürülməsini işğal olunmuş ərazilərin xristianlaşdırılması ilə bağlı planın tərkib hissəsi olduğunu hesab etmişlər. Plana uyğun olaraq çar Rusiyası işğal etdiyi Şimali Azərbaycan ərazisində yerli əhalini köçə məcbur edir, onların yerinə xristian əhalinin, o cümlədən ermənilərin yerləşdirilməsini həyata keçirirdi. Bununla Rusiya, özünə dayaq ola biləcək əhali kütləsinin mümkün olduqca artırılmasına nail olmağa çalışırdı. Bu baxımdan da köçlər həm Rusiya, həm də ermənilər üçün çox sərfəli idi və hər iki tərəf bu fürsəti əldən verməmək üçün bütün vasitələrdən istifadə etməyə hazır idilər. Digər tərəfdən bu müqavilələr nəticəsində. çar Rusiyası işğal etdiyi ərazilərdə yerli əhalinin Anadoluya kütləvi köçünə səbəb oldu.

Köçlər, əsasən, İrəvan, Naxçıvan, Qarabağ, Gəncə və Şirvan bölgələrini əhatə edirdi. Ermənilərin kütləvi köçürülməsi prosesinə, demək olar ki, dövlətin əsas iqtisadi və maliyyə gücü səfərbər edildi. Çünki söhbət, müharibələrdən yeni çıxmış dövlətin yüz minlərlə insanı köçürməsi və yeni ərazilərdə yerləşdirilməsindən gedirdi. Demək olar ki, şah hökuməti tərəfindən ödənilən müharibə təzminatının xeyli hissəsi bu işə sərf edildi. Digər tərəfdən köçürülən erməni əhalisinin geri qalan mülkünün satılmasına köməklik göstərilməsi, köçürülən əhalinin bir neçə il vergilərdən azad olunması kimi işlərin öhdəsindən gəlmək çox çətin bir məsələ idi. Demək ki, dövlətin siyasi iradəsi bütün bunları etməyi tələb edirdi.

İşğaldan sonra erməni əhalisinin Şimali Azərbaycan ərazisinə kütləvi köçü M.Saray, H.Baykara, K.Beydilli, C.Azer, K.Karabekir və digər türk tarixçilərinin əsərlərində geniş şəkildə təhlil olunmaqdadır. Bu baxımdan həmin müəlliflərin Türkiyənin müxtəlif şəhərlərində nəşr olunmuş kitablarının Azərbaycanda da geniş əhali kütləsinə çatdırılması mühüm əhəmiyyət kəsb edir.

## Türkmənçay və Ədirnə müqavilələrindən sonra siyasi vəziyyət

Rusiya ilə müharibədən məğlub yorğun ayrılan Osmanlı dövləti, nə Rusiya və nə də İranla üz-üzə gəlmək istəməyərək Qafqazdakı hadisələrə müdaxilə etmədi. M.S.Bil-

* *tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
e-mail: v.umudlu@yahoo.co.uk

genin yazdığı kimi, Osmanlı dövləti, rusların Qafqazdakı hərəkəti haqqında sərhəd vilayət hakimlərinin göndərdikləri hesabatlarla kifayətlənməli oldular (5, 306). İrandan sonra Osmanlı dövlətini də məğlub edən Rusiya, bu iki müsəlman dövlətə qarşı İrəvan mərkəz olmaqla bir tampon bölgə təşkil etmiş, İran və Osmanlı torpaqlarında yaşayan erməniləri zorla köçürərək bu bölgəyə yerləşdirmişdilər (7, 60-79). Ermənilər Rusiyanın himayəsi altında muxtar bir dövlət qurmağa ümid edirdilər. Lakin çar I Nikolay bunun əvəzinə, İrəvan və Naxçıvan xanlıqlarını qısa bir müddətə (1828-1840) birləşdirərək, ona vilayət statusu verdi. G.Burnutyana görə, hərbi bölgənin təşkili rusların ermənilərə təqdim etdiyi bir mükafat idi (8, 227). K.Qarabəkir Erməni dosyasında yazır: Ruslar Qarabağ ilə birlikdə aldıqları digər yerləri bir vilayət halında birləşdirdilər. Adını da Armyanskaya oblast qoydular (10, 127). Məlumdur ki, İrəvan xanlığı Naxçıvan xanlığı ilə birlikdə Erməni vilayəti olaraq elan edilmiş, İrəvan şəhəri 1828-ci ildən həmin vilayətin, 1850-ci ildə isə İrəvan quberniyasının mərkəzinə çevrilmişdir.

14 sentyabr 1829-cu ildə Osmanlı ilə Rusiya arasında Ədirnə müqaviləsi imzalandı. Ədirnə müqaviləsi Qafqazın bəzən bütün, bəzən də müxtəlif bölgələrində 375 il davam edən Osmanlı hakimiyyətinə son qoydu. Qafqaza öz iddiasından artıq əl çəkən Osmanlı dövləti üçün yüz illərlə Rusiya və İrana qarşı mübarizədə güc və güvən qaynağı olan Qafqaz xalqları üzərindəki hakimiyyətinin sona çatması da böyük bir itki idi (5, 357; 6, 193). İmzalanmış müqavilə nəticəsində (Ədirnə müqaviləsi – V.U.) Osmanlı imperatorluğunun Qafqazla əlaqələri kəsilmiş, bütün Qafqaz rusların əlinə keçmişdi (12, 57). Məlumdur ki, bu müqavilə Qacarlarla Rusiyanın imzalanmış olduğu Türkmənçay müqaviləsini təsdiq etmiş oldu.

M.Budak yazır ki, 1828-1829-cu illər Osmanlı–Rusiya müharibəsi Qafqazdakı Osmanlı-rus nüfuz mübarizəsində bir dönüş nöqtəsi oldu. Ədirnə müqaviləsi ilə Osmanlı dövləti bütün Qafqazdakı hökmranlıq iddialarından Rusiyanın xeyrinə vaz keçmişdir. Bu müqavilə ilə Rusiya uzun sürən mübarizə nəticəsində İrandan sonra Osmanlı dövlətini də Qafqazdan hüquqi cəhətdən çıxarmağa müvəffəq olmuşdu (7,14). Bu müqavilə nəticəsində Osmanlı imperiyası Gürcüstanın Rusiya imperiyasının tərkibinə daxil olmasını qəbul etdi. Bununla Osmanlı imperiyası bütün Qafqazı və buradakı mülklərini itirmiş oldu. Osmanlı imperiyası Qafqazdan ayrıldı, bütün Qafqaz ruslar tərəfindən ələ keçirildi (13, 57). Tarixçi C.Azer qeyd edir ki, 1828-1829-cu il müharibəsinin bir xüsusiyyəti də, Osmanlı ölkəsindəki yerli ermənilərin ruslara ilk dəfə kömək etmiş olmalarıdır. Bu tarixdən sonra Rusiya, Osmanlı ermənilərinin mühafizəsini öz üzərinə götürmüş oldu (1, 95).

Rusların Qafqazı işğal etməsindən bəhs edən M.Saray Yeni Türk Cumhuriyetleri Tarihi adlı əsərində yazır: Rusiya Qafqaz ölkələrini işğal etdikdən və tampon Erməni bölgəsini (Erməni vilayəti –V.U.) qurduqdan sonra, bölgənin Qafqaz ordu komandanlığı vasitəsilə idarə etdiyini görürük. Azərbaycan xanlıqları da Qafqaz ordusu tərəfindən idarə edilməyə başlanmışdı. Rusiya, xalqının çoxu müsəlman olan Qafqaza uzun müddət hakim olacağı qənaətində deyildi. Fəqət daxili problemləri üzündən Osmanlı dövləti ilə İranın bölgənin geri alınması üçün heç bir təşəbbüs göstərməməsi, daha doğrusu göstərə bilməməsi Rusiyanı bölgənin idarə olunması xüsusunda yeni tədbirlər görməyə vadar etmişdir (21, 30). Bu ərazilər Rusiya tərəfindən tutularkən ermənilər əhalinin yalnız 20%-ni təşkil etmişdir. Lakin sonrakı dövrlərdə xristian torpaqlarının təhlükəsiz olduğuna inanan minlərlə erməni Rusiyanın köməyi və dəstəyi ilə İran və Osmanlı ərazilərindən Qafqaza (Rəvan və ətrafı) köçmüşdülər. Beləliklə, İran Trans-Qafqaz və Xəzər dənizinin çox hissəsindən uzaqlaşdırıldı (17, 328-329).

Ədirnə müqaviləsi ilə Rusiya, Dunay çayının mənbəyindəki adalar ilə Qafqazdakı strateji əhəmiyyəti olan bəzi yerləri ələ keçirmiş və beləcə Qara dənizin qərb və şərqindən bir az daha cənuba enmiş oldu (23, 113.). F.Kirzioğlu qeyd edir ki, Qars əyalətinin şərqindəki yarımmüstəqil Rəvan-Türk xanlığının bir hissəsi olan Gümrü və Şərqi Şorayel ilə

Sürməli Çuxuru (indiki İğdır və Tuzluca Bölgəsi) kimi, Arazın hər iki tərəfindəki ərazilər də Rusiyanın hakimiyyəti altına keçmiş və Ağrı dağı Türkiyə İran-Rusiya sərhədlərinin qovuşduğu bir əraziyə çevrilmişdir (11, 25-26).

İrəvan və Naxçıvan xanlıqları əsasında qurulan Erməni vilayəti və onun mərkəzi olan İrəvan şəhərinin Azərbaycan torpaqları olması türk tarixçiləri tərəfindən də təsdiq olunan bir həqiqətdir. Başbakanlıq Osmanlı arxivlərində hifz olunan və Rəvan bölgəsinin demoqrafik, sosyo-iqtisadi vəziyyəti haqqında son dərəcə geniş və əhəmiyyətli məlumatlar verən Revan Tapu Tahrir Defterleri bölgənin tamamilə bir Azərbaycan torpağı olduğunu təsbit etməkdədir (2, TT, 633/901). D.Çelik yazır ki, Cənubi Qafqazdan Çukurovaya qədər dağınıq bir şəkildə tacir bir xalq olaraq və yaşadıqları bölgələrdə azlıqdan çoxluğa keçməmiş olan erməni xalqı üçün Osmanlı türkləri ilə Azərbaycan türklərinin torpaqları üzərində bir Ermənistan təşkil olunmuşdur (9, 60-79). Rəvan şəhəri XIX əsrin əvvəlində tarixi, sənəti, adət-ənənəsi, mədəniyyəti və demoqrafik quruluşu ilə bir türk şəhəridir (18, 17). E.Kürkçüoğlunun Revan'dan Erivan'a Bir Şehrin Kimliği məqaləsində yazır ki, Rəvan XIX əsrin başlanğıcına qədər bir türk-islam yurdu misyonu daşıyan Rəvan torpağının altı da, üstü də türk millətinə aiddir (12, 1-13).

**Ermənilərin Şimali Azərbaycan torpaqlarına kütləvi köçü**

Rus tarixçisi V.Qriqoryevin yazdığına görə, 1828-ci ilin yay aylarında İrandan Naxçıvan əyalətinə 2511 erməni ailəsi köçürüldü. Onlardan 416 ailə şəhərdə, 1869 ailə isə Naxçıvan və Ordubad dairələrində yerləşdirildi (24, 83-84). Müəllifin tərtib etdiyi cədvəldən göründüyü kimi köçürülən erməni ailələri Naxçıvan şəhəri və 47 kənddə məskunlaşdırılmışdı. Erməni əhali, əsasən, Səlmas və Xoy vilayətlərindən, nisbətən də Təbriz, Urmiya şəhərlərindən köçürülmüşdü (24, 125-127). Naxçıvan ərazisinə köçürülən ermənilər Əbərqənus, Bənənyar, Qazançı, Xəlilli, Kültəpə Nehrəm, Arınc, Qarababa, Nurs, Əylis, Dizə, Çənnəb və digər qəsəbə və kəndlərə yerləşdirildi. Nehrəm qəbul etmədi (16, 29-30).

Qarabağa ermənilərin köçürülməsindən bəhs edən Ö.K.İşyar yazır: Erməni vilayəti Qarabağı əhatə etməsə də, Qarabağa ermənilərin kütləvi şəkildə köçü davam etdiyi açıq bir həqiqətdir. Erməni köçkünlər Qarabağda xəzinə torpaqlarında yerləşdirilmələrinə baxmayaraq, onların bir qismi müsəlmanların torpaqlarını satın alaraq, onları öz torpaqlarından qovmuşlar. Bu da müsəlman bölgəsi sayılan Qarabağda etnik tərkibin sürətlə dəyişməsinə və iki əsas etnik qrup arasında xırda gərginliklərin baş verməsinə səbəb olmuşdur (15, 221-222). Tarixçi K.Beydillinin fikrincə, Azərbaycan ilə Ermənistan arasındakı Dağlıq Qarabağ məsələsinin tarixi köklərində, rusların Qarabağı xristianlaşdırmaq məqsədi ilə, bölgəyə xaricdən gətirdiyi ermənilərin məskunlaşdırılması durmaqdadır (4, 367). Tarixçi M.İsmayıl da Qarabağın ermənilərlə məskunlaşdırılması məsələsinə toxunaraq qeyd edir ki, çar Rusiyası, hələ Rusiya-Qacar müharibələrinin gedişində İran və Türkiyədən Cənubi Qafqaza, xüsusilə Dağlıq Qarabağa köç etdirilən ermənilərlə bölgədə erməni əhalisinin artmasına çalışmışdır (14, 217-218). C.Azerə görə, Azərbaycana gətirilən erməni əhali, bəzi ərazilərdə demoqrafik vəziyyətin ölkənin əsas sahibi olan oğuz türklərinin əleyhinə pozulmasının başlanğıcını təşkil etmişdir (1, 91).

K.Gürün yazır ki, Rusiya, Osmanlı dövlətinə hücum edərkən yerli ermənilər öz ölkələrinə xəyanət edərək işğalçıların tərəfini tutdular və onları gül-çiçəklə qarşıladılar. Ruslar Ərzuruma doğru hərəkət edərkən, ermənilər onları sevinclə qarşıladı. Sülhün ardından 100.000 erməni Ərzurum və Ələşkirtdən Rusiyaya köç etdi (13, 57). Bu fikri təsdiq edən K.Beydilliyə görə də, 1828-1829-cu illər Osmanlı-Rus müharibəsinin gedişində Ərzincana qədər Anadolunu işğal edən rus qoşunları 100.000 nəfərə yaxın erməni əhalisini, İrəvan və Naxçıvan bölgələri başda olmaqla Qafqaza yerləşdirirdilər (4, 365-384). Başqa bir mənbədə göstərilir ki, 1829-cu ildə rus ordusu Ərzurumdan çəkilərkən

təxminən 40.000 ermənini özləri ilə gətirdilər (20, 1-25). F.Kirzioğlu yazır ki, 1828-ci ildə Qarsı, 1829-cu ildə Ərzurum, Bayburt və Muşun şimalını istila edən ruslar, 1830-cu ildə, bu bölgələrdən geri çəkilirkən özləri ilə götürdükləri 40 min erməni mühacirini Rəvan əyalətinə və Axısqa bölgəsinə yerləşdirərək Azərbaycan ilə Anadolu türklüğü arasında fiziki bir sədd, xristian divarı hörməyə çalışmışdır (11, 58-59; 3, 31).

Ermənilərin İrəvana köçürülməsindən bəhs edən Kazım Qarabəkir paşa yazır: Türkiyə və İrandakı erməni xalqının çoxu Rusiyaya köç etdilər. O qədər ki, İran və Türkiyədə artıq Ermənistan deyiləcək yer və hal qalmadı. İrandan köç edənlər 40.000 nəfər idi. Bunlar Erməni vilayəti deyilən əraziyə yerləşdirildi (10, 128). Ermənilərin Rusiyanın yeni işğal etdiyi ərazilərə köçürülməsindən bəhs edən tarixçi K.Beydilli göstərir ki, Rusiyanın həm İran, həm də Osmanlılarla bağladığı sülh müqavilələrində yer alan bir önəmli maddə, xristian əhalinin maneəsiz və sərbəst şəkildə rus torpaqlarına köç edə bilmələrini nəzərdə tuturdu. Müqavilələrdə xüsusilə qeyd olunan bu maddələrin məqsədi, İranın və Osmanlı imperiyasının ermənilərinin Rəvan və Naxçıvan bölgələrinə köçürərək bu bölgəni canlandırmaq istəyirdi. Müəllif, Ədirnə müqaviləsindən sonra Anadoludan Cənubi Qafqaza köçürülən 84.000 nəfər erməni əhalisinin Gəncə, İrəvan və Tiflisdə yerləşdirildiyini qeyd edir. Eyni tarixlərdə Qarabağa müxtəlif yerlərdən gələn ermənilər də yerləşdirilmişdir (4, 365-384).

G.Burnutyan yazır ki, qarşıda duran əsas problem son üç əsrdə erməni əhalisinin çoxunun tarixi erməni torpaqlarını tərk etməsi və İrəvan bölgəsində ermənilərin azlıq təşkil etməsi idi. Bunun həllini tapmaq istəyən erməni liderləri və Rusiya tərəfdarları, rus komandirlərini və diplomatlarını Şah Abbasın dövründə İrana sürgün edilmiş ermənilərin geri dönməsini bir şərt olaraq İranla danışıqlara daxil etməyə razı salmağa çalışmışdılar (8, 193). Erməni tarixçinin fikirləri ilə bağlı onu bildirək ki, İrəvan nəinki son üç əsr ərzində, ümumiyyətlə tarixi erməni torpağı olmayıb və ermənilər heç vaxt İrəvan bölgəsində çoxluq təşkil etməyiblər.

1828-1830 illərdə Osmanı dövləti və İrandan Cənubi Qafqaza gələn ermənilərin dövlətə aid ən məhsuldar və zəngin torpaqlarda yerləşdirildiyini qeyd edən K.Beydilli onu da əlavə edir ki, müqavilə əsasında yerləşdirilən 124 min nəfərin xaricində də bu bölgəyə yerləşən ermənilər olmuş və onların ümumi sayı 200 min nəfərə çatdırılmışdı (4, 365-384; 22, 375). K.Karabekirin köçlərlə bağlı tərtib etdiyi cədvələ əsasən Türkmənçay və Ədirnə müqavilələrindən sonra İrandan 8249 xanə və ya 41.245 nəfər, Şərqi Anadoludan isə 20 min xanə və ya 100 min nəfər erməni yeni işğal olunmuş ərazilərə köçürülmüşdü (10, 10). Müəllif daha sonra yazır ki, Türkiyə və İranda qalan keçmiş Ermənistan deyilən bölgənin erməni əhalisinin çoxu Rusiyaya köç etdilər. O qədər ki, İran və Türkiyədə artıq Ermənistan deyiləcək yer və hal qalmadı. İrandan köç edənlər 40.000 idi. Bunlar erməni vilayəti deyilən yerə yerləşdirildi. Türkiyədən isə 90.000 erməni köç etmişdi. Gümrü, Axıska və Axalkələk bölgələrinə yerləşdirildilər. Fəqət aclıq və sarılıqdan bir çoxları öldü (10, 128).

Göründüyü kimi, Rusiya dövləti bütün vasitələrdən istifadə edərək ermənilərin Qacar və Osmanlı dövlətlərindən kütləvi köçürülməsinə nail olmuş, gələcək mübarizədə onlardan bir vasitə kimi istifadə etmişlər. Bu köçürmələr Qafqazın xristianlaşdırılması planına xidmət etmişdir.

**Nəticə**

Beləliklə, Türkmənçay və Ədirnə müqavilələri Qafqazın, o cümlədən Şimali Azərbaycanın Rusiyanın tərkibinə keçdiyini bir daha təsdiq etdi və xalqın hərbi yardım haqqındakı ümidlərinə son qoydu. Həm Osmanlı dövləti, həmdə Azərbaycan baş vermiş hərbi məğlubiyyətlə barışmaq məcburiyyətində qalmalı oldu. Digər tərəfdən, Osmanlı dövləti ilə yanaşı Azərbaycan da erməni məsələsi ilə qarşılaşmalı oldu. Rusiyanın təcavüzkar

siyasətinə sədd çəkə bilməməsi Qacar xanədanının da Qafqaz siyasətini tamamilə sarsıtmış oldu. Hadisələrin gedişi Türkiyə tarixşünaslığına da öz damğasını vurmuş və tədqiq edilən mövzu haqqında ətraflı araşdırmalar aparılmışdır.

Türkmənçay və Ədirnə müqavilələrindən sonra ermənilərin Rusiya işğalı altında olan torpaqlara kütləvi köçü başladı. Köçlər Rusiya imperiyasının nəzarəti altında həyata keçirilirdi. Türkiyə tarixçiləri də, qeyd etmişlər ki, həyata keçirilən köçürmə əməliyyatı nəticəsində 130 minə yaxın erməni Şimali Azərbaycan torpaqlarında yerləşdirildi. Kütləvi köçlər nəticəsində erməni vilayəti və Qarabağın dağlıq hissəsində ermənilərin xüsusi çəkisi xeyli artmış oldu.

Göründüyü kimi, Rusiya-Qacar və Rusiya-Osmanlı müharibələrindən sonra on minlərlə erməni əhalisi yeni vətən əldə etmək ümidi ilə Şimali Azərbaycan torpaqlarına köçürüldü. Köçlərin həyata keçirilməsində Rusiya dövləti əlindən gələni əsirgəmədi. Köçlər demoqrafik vəziyyətin dəyişməsinə səbəb oldu.

## ƏDƏBİYYAT


1. Azer C.. Babadan Oğula Güney Kafkasya (Türkiye-Güney Kafkasya İlişkileri). İstanbul: Truva Yayınları, 2011, 640 s.
2. Başbakanlık Osmanlı Arşivleri (BOA), Defter-i müfessel-i eyalet-i Revan
3. Baykara, H. Azerbaycan İstiklal Mücadilesi Tarihi. İstanbul: Genclik Kitabevi,1975, 331 s.
4. Beydilli K. 1828-1829 Osmanl-Rus Savaşında Doğu Anadoludan Rusiyaya Göçürülen Ermeniler, TTK Belgeler XIII / 17-den ayr; basım, Ankara 1988, s. 365-384
5. Bilge M.S. Osmanlı Çağında Kafkasya (1454-1829) / İstanbul: Kitapevi, 2012, 306 s.
6. Bİ, M. Kafkas Tarihi, 2 Cilt, Ankara: Berikan Yayınevi, 2011, 886 s.
7. Budak, M. Rusya'nın Kafkasya'da Yayılma Siyaseti. Ankara: Yeni Türkiye Yayınları, 2018. Cilt: IX, s. 641-679.
8. Bournoutian G.A. Ermeni Tarihi Ermeni Halkının Tarihine Kısa Bir Bakış, Çev: Ender Abadoğlu-Ohannes Kılıçdağı, İstanbul: Aras Yayıncılık, 2011, s. 227.
9. Çelik D. XIX ve XX. Yüzyıllarda Azerbaycan // Ankara: Bilig Türk Dünyası Sosyal Bilimler Dergisi, 1996. Sayı 3. s. 60-79
10. Karabekir K.. Ermeni Dosyası. İstanbul: Emre, 1994, 224 s.
11. Kırzıoğlu M. Fahrettin. Armenya Yukarı-Ellerde 2700 Yıllık Türk Varlığı, Ermeniler'in Rus İstilasına Alet Olması ve Mezalimi, XX. Yıl Armağanı Ermeniler Hakkında Makaleler-Derlemeler, II, Ankara, 1978.
12. Kürkçüoğlu E. Revan'dan Erivan'a Bir Şehrin Kimliği // YENİ TÜRKİYE 60/2014, s.1-13.
13. Gürün K. Ermeni Dosyası, Ankara: BilgiYayınevi, 2012. 480 s.
14. İsmayılov M. Azərbaycan tarixi, Bakı: Elm, 2007. 504 s.
15. İşyar, Ö.G. Sovyet-Rus Dış Politikaları ve Karabağ Sorunu. İstanbul: Alfa, - 2004. 294 s.
16. Hacıyev İ., Amanoğlu E, Tarihte ve Günümüzde Nahçıvan, Ankara: Ankara Universitesi, 1998, 92 s.
17. Hosking G.Rusya ve Ruslar. Çeviren Kezban Acar. İstanbul: İletişim Yayınları: 2019, 901 s.
18. Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914, I kitab Ankara: Osmanlı Arşivi Yayınları, 1992. 427 s.
19. Osmanli Devleti Ile Azerbaycan Türk Hanliklari Arasindaki Münasebetlere Dair Arşiv Belgeleri Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy II (1575-1918) / Ankara: Osmanlı Arşivi Yayınları, 1993. 279 s.
20. Osmanlı Devletinde Ermeni Nüfusu, Türk Tarih Kurumu Başkanlığı, s. 1-25.
21. Saray, M. Yeni Türk Cumhuriyetleri Tarihi. Ankara: Türk Tarih Kurumu, 2014. 514 s.
22. Sarıahmetoğlu Nesrin. Azeri-Ermeni İlişkileri (1905-1920). Ankara: Türk Tarih Kurumu, 2006, s. 375.
23. Uçarol R.. Siyasi Tarih, İstanbul: Filiz Kitapevi, 1995, 861 s.

24. Григорев, В. Статистическое описание Нахичеванской провинции. Санктпетербургъ: Тип. Департамента Внешней Торговли.

***Summary***

***Vidadi Umudlu***

***Turkish Historians about the Mass Resettelement of Armenians on the Land of Northern Azerbaijan (1828-1829)***

The article reflects the current political situation in the South Caucasus, including in Northern Azerbaijan, and the mass resettlement of Armenians after the Turkmenchay and Edirne treaties, which confirmed the defeat of Gajar Iran and Ottoman Turkey. This article, based on Turkish historiography, reflects the aggressive policy of Tsarist Russia in the region, the organization of the Armenian province and its role as the main organizer of the mass resettlement of Armenians.

After the Turkmenchay and Adrianople treaties, a migration commission created by the Russian Empire, which also included Armenian nationalists, resettled 40,000 Armenians from Qajar Iran and 84,000 Armenians from Ottoman Turkey to northern Azerbaijan. The resettled population was compactly settled, mainly in Yerivan, Nakhchivan, Karabakh, Ganja and other regions. As a result of these resettlements, the process of armenization of the Armenian province was carried out, organized on the basis of the Yerevan and Nakhchivan khanates and the mountainous part of Karabakh. When investigating the events, the works of Turkish historians K. Beidilli, J. Azera, K. Garabekir, H. Baykar and other authors were used.

These resettlements, carried out at the expense of the Azerbaijani population, significantly changed the demographic situation and exacerbated interethnic and interreligious tensions. According to Turkish historians, migration was not limited to official statistics, and most of the Armenian population preferred unofficial migration. This allows us to say that the migration number exceeds the official data.

The Russian authorities tried to expel the local population from their homes once and for all, and at best, their lands were distributed to new settlers. Mass resettlements significantly aggravated the situation of Azerbaijani peasants and led to massive uprisings in the 1930s. Tens of thousands of Azerbaijanis were forced to emigrate to Qajar Iran and Ottoman Turkey.

**Key words:** *Northern Azerbaijan, Tsarist Russia, Turkmenchay treaty, Treaty of Adrianople, Armenian province, Mass migration*

***Резюме***

***Видади Умудлу***

***Турецкие историки о массовом переселении армян на землях Северного Азербайджана (1828-1829)***

В статье отражена текущая политическая ситуация на Южном Кавказе, в том числе в Северном Азербайджане, и массовое переселение армян после Туркменчайского и Эдирнского договоров, подтвердившее поражение Гаджарского Ирана и Османской Турции. Эта статья, основанная на турецкой историографии, отражает агрессивную политику царской России в регионе, организацию «армянской провинции» и ее роль как главного организатора массового переселения армян.

После Туркменчайского и Адрианопольского договоров созданная Российской империей миграционная комиссия, в которую также входили армянские националисты, переселила 40 000 армян из Каджарского Ирана и 84 000 армян из Османской Турции в северный Азербайджан. Переселенное население было расселено компактно, в основном в Ериване, Нахчыване, Карабахе, Гяндже и других регионах. В результате этих переселений был осуществлен процесс арменизации «армянской провинции», организованный на базе Ереванского и Нахчыванского ханств и горной части Карабаха. При расследовании событий были использованы труды турецких историков К. Бейдилли, Дж. Азера, К. Гарабекира, Х. Байкара и других авторов.

Эти переселения, осуществленные за счет азербайджанского населения, существенно изменили демографическую ситуацию и обострили межэтническую и межрелигиозную напряженность. По мнению турецких историков, миграция не ограничивалась официальной статистикой, и большая часть армянского населения предпочитала неофициальную миграцию. Это позволяет говорить о том, что количество миграций превышает официальные данные.

Российские власти пытались раз и навсегда изгнать местное население из домов, и в лучшем

случае их земли раздавали новосёлам. Массовые переселения значительно обострили положение азербайджанских крестьян и привели к массовым восстаниям 30-х годов. Десятки тысяч азербайджанцев были вынуждены эмигрировать в Каджарский Иран и Османскую Турцию.

**Ключевые слова:** *Северный Азербайджан, Царская Россия, Туркменчайский договор, Адрианопольский договор, Армянская провинция, Массовая миграция*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.